**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FƏLSƏFƏ TARİXİNDƏ SOSİAL UTOPİYA İDEYASI: ŞƏRQ-QƏRB KONTEKSTİNDƏ KOMPARATİVİST TƏHLİL

İxtisas: 7210.01 – Fəlsəfə tarixi

Elm sahəsi: Fəlsəfə

**İddiaçı: Günel Əliniyaz qızı Qarayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, professor
**Rəbiyyət Nurullah qızı Aslanova**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, dosent
**Arzu Əşrəf qızı Hacıyeva**

Fəlsəfə elmləri doktoru, dosent
**Afaq Sultan qızı Məmmədova**

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Qadir Bilman oğlu Səfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Rafail Ayvaz oğlu Əhmədli**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Fəlsəfə tarixinin inkişafında sosial həyatın proqnozlaşdırılması, daha sonra isə, düzgün formada planlaşdırılması hər zaman xüsusi önəmə sahib məsələlərdən sayılmışdır. Eləcə də, cəmiyyətlərin davamlı inkişaf göstəriciləri hesab olunan sosial yenidənqurma və sosial harmoniyanın əldə olunması da, birbaşa olaraq proqnozlaşdırma və planlaşdırmanın effektivliyindən aslı olmuşdur. Digər tərəfdən isə, real sosial həyatın proqnozlaşdırılması, planlaşdırılması, sosial yenidənqurma və sosial harmoniya konkret gerçəkliyin şərtlərilə bağlı olduğu qədər, həm də utopik düşüncələr üzərində inşa edilmiş təməllərə əsaslananmaları ilə də səciyyələnmişdir. Şərqin və Qərbin bütün tarixi dönəmlərdə bu və ya digər dərəcələrdə intensivliklərlə aktuallıq qazanan utopik düşüncələr, bir növ cəmiyyətlərin üzləşdiyi sosial xarakterli problemlərinin ağırlığını neytrallaşdırmağa çalışmışdır. Utopiyalar Ernst Bloxun təbirincə daima müəyyən bir ümid faktoru olmuşdurlar. Sosial nizam gerçəklikdə əldə oluna bilinmədikdə, onun əldə olunması şişirdilmiş formada təxəyyüldə gerçəkləşdirilmişdir. Belə ki, utopiyanın mahiyyətində, müəyyən bir təskinlik, fərahlıq, rahatlıq öz əksini tapır. Utopiya daima sosial, siyasi, iqtisadi və digər amillər fonunda törəyən destruktiv proseslərin açdıqları mənəvi boşluqları müalicə etməyi hədəfləyir. Gələcəyə olan ümid hissini gücləndirir. Problemlərdən çıxış yolunu təxəyyüldə ideallaşdıraraq, onu reallıqdan ayıraraq təqdim edir. Bu mənada, utopiya daima mövcud olan problemlərə əks, problemsiz vəziyyəti, nizamı, harmoniyanı mədh edir. Təsvir etməyə çalışdığı ideal cəmiyyəti sonsuz təriflər vasitəsilə reallıqdan qıraraq ayırır və reallığın üstünə qaldıraraq orada inşa edir. Utopiyanı aktual edən əsas məqamlardan biri, onun mövcud reallığın fövqündə qurulan ikinci reallıq olmasıdır. Utopiya reallığın içində qala bilmədiyindən, ideal formalar yaradaraq onun orbitini tərk etməyə məcburdur. Utopizmə xas bu məqam istər Şərq, istərsə də Qərb utopik təlimləri üçün eyni dərəcədə aktuallıq kəsb etməkdədir.

Digər tərəfdən, utopiyanın mahiyyətində özünəxas bir ironiya və komizm də vardır. Onda xüsusi bir yumor da əks olunur.

Utopiyanı aktual edən növbəti məqam, onun uzun zaman vadisində də, problemlərə ironiya və komizm əsasında baxa bilməsidir. Utopiya sosial problemlərə qarşı cavab reaksiyası kimi törəsə də, onlardan çəkinmir. Onlara məzhəkə ilə yanaşmağı da bacarır. Bu mənada, sosial mənşəli bir fenomen kimi, gerçəkləşəcəyi zamanadək daima aktual olaraq da qalmağı bacarır.

Şərq və Qərb utopik təlimlərinin təkamülünü izlədikdə aktuallıq qazanan daha bir məsələ, sosial problemlər qarşısında insanın gücünə böyük inamın hər iki cəhət üçün ümumi olmasıdır. Bu mənada, "*utopik layihə insan təbiətini dəyərindən artıq qiymətləndirir*".[1] Utopiya məhz elə buna görə utopiyadır. Onda bir arzu və israr əks olunur. Onda reallıqlardan qaçma və ya onu ideal görmək naminə şişirtmək xassəsi vardır. Fəlsəfə tarixində mədəni hadisə kimi meydana çıxan sosial utopiya problemi bu anlamda da, xüsusi aktuallıq kəsb etmiş olur. Utopiyanın qeyd olunan yüksək qiymətləndirmə və dəyərləndirmə xüsusiyyətləri, onun aktuallığını da əbədiləşdirmiş olur. Maraqlıdır ki, utopiyanın aktuallığı itdikdə, cəmiyyətdə reqres də qaçılmaz olur. Belə ki, "*utopiklik öldükdə onsuz heç bir radikal fəlsəfə mövcud ola bilmir*".[2] Radikal fəlsəfənin əsas şüarı, bizi əhatə edən gerçəklik haqqında biliklərimizin şərtiliyi və ümumiyyətlə, tam biliyə nail olmanın mümkünsüzlüyünə əsaslanır. İstənilən mümkünsüzlük iddiası isə, hər zaman insanın axtarışları üçün əsas motivasiya edici faktorlardan olmuşdur. Bu səbəbdən, ilkin fəlsəfi axtarışların mahiyyətində utopizm də ehtiva olunur. Başqa sözlə, gələcək fəlsəfi paradiqmanı daima, müəyyən utopik proqram da müşaiət edir. Radikal fəlsəfənin bu məntiqi insanı daima axtarışda olan aktual bir varlığa da çevirir. Bu mənada, paradoksal səslənsə də, utopizm ümumilikdə fəlsəfənin gerçəkləşmə dinamizmini də təmin edir. Bir növ fəlsəfəni daima axtarışlara və eləcə də, aktual qalmağa da sövq edir. Utopiya tərəf qismində itdikdə, digər tərəf olan fəlsəfənin də dinamikası zədələnmiş olur.

---

[1] Morse, David. American Romanticism: From Cooper to Hawthorne. Excessive America. Volume 1 of American Romanticism / David Morse. – Houndmills, Basingstoke: The Macmillan Publishers Ltd, – 1987. – 242 p., s. 209.

[2] Shklar, Judith N. After Utopia: The Decline of Political Faith / Judith N Shklar. – Princeton, New Jersey: Princeton University Press, – 1969. – 322 p., s. 268.

Fəlsəfə daima proqres, yeni fikir axtarışında ola bilmir. Bir sözlə, fəlsəfə bütün tarix boyu ideal olana çatmaq üçün mübarizələrdən hasil olmuşdur. Bütün qədim cəmiyyətlərdə fəlsəfə qeyd olunan ideallığı hazır şəkildə təqdim edən ilahilik prinsipi, Tanrılar konsepsiyası, mifologiyaya əks olaraq meydana gəlmişdir. Daha çox gerçəkliyə, eləcə də, inkişaf etmək imkanına malik olmaq üçün gələcəyə üz tutmuşdur. Gələcək üçün hesablanan utopiyanın gerçəkləşməsi də bu mənada məntiqidir. Belə ki, utopiya fəlsəfi fikirlərin gerçəkləşməsinin əsası olmaqla özü də, müəyyən mənada gerçəkləşmişdir. Daima fəlsəfəyə aktuallıq qazandıraraq özü də aktual qala bilmişdir. Eləcə də, hansısa formada istənilən gerçəkləşmədə özünə müəyyən yer də edə bilmişdir. Bu məntiqdən çıxış etdikdə, utopiya həyata keçən fəlsəfi paradiqmalarda katalizator rolunda çıxış edən önəmli aktuallıq faktoru olmuşdur.

Ümumiyyətlə, müasir dünyanın reallıqlarını nəzərə aldıqda, Şərq və Qərb mədəniyyətləri arasında müxtəlif fəlsəfi mövzularda komparavistik təhlillərin aparılması, prinsip etibarı ilə son dərəcə aktual məsələlərdəndir. Şərq və Qərb utopik düşüncələrindəki tarixi təkamülün müqayisəli öyrənilməsini aktual edən əsas səbəblərindən biri də, əvvəllki kimi olmasa da, müasir XXI əsrdə də, bu iki dünya arasında müəyyən uçurumların mövcudluğudur. Müasir dünyanın əsas göstəricisi olan iqtisadi planda bu iki şərti məkanın bir-birinə qazandıracağı faydalar çox olduğu kimi, gələcəkdə intellektual planda qazandıracaqları da kifayət qədərdir. Ümumilikdə intellektual düşüncənin məhsulu olan utopik görüşlərin müqayisəli təhlili də, bu mənada aktuallıq kəsb etməkdədir. Digər tərəfdən, Şərq və Qərbdə yüksək texnologiyaların inkişafının artan intensivliyi, ənənəvi mədəni-mənəvi idealların yenidən qiymətləndirilməsini aktuallaşdırdığı kimi, yeni şərtlər əsasında meydana gələn sosial utopiya probleminin də aktuallığı artırmış olur. Müasir texnogen dünya bir növ özündə utopiya üçün yer saxlamaq istəmir. Müasir dünyanın dəyişən şərtlərində utopiya probleminin də ənənəvi konteksti dəyişmiş olur. Bu cəhətdən, dissertasiyada fəlsəfə tarixində ənənəvi olaraq formalaşmış Şərq və Qərb utopik nəzəriyyələrilə yanaşı, müasir dövrün müstəvisində də, utopiya probleminin fəlsəfi təhlilini verməyi məqsədəuyğun və aktual hesab edirik.

Şərq və Qərb utopik düşüncələri arasında müqayisəli təhlillərin aktuallığını artıran məqamlara aşağıdakıları da əlavə etmək olar:

- Şərq və Qərb fəlsəfi təlimlərindəki utopik baxışların tarixi planda müqayisəli təhlili və onlar arasında ümumi, ortaq məqamların tapılması, müasir qloballaşmış cəmiyyətlər üçün də vacib amillərdəndir. Belə ki, istənilən qəbildən olan ümumi məqamlar müxtəlif mədəniyyətləri təmsil edən düşüncələrin bir arada yaşama potensialına da ümumilikdə aktualıq qazandırır.
- Şərq və Qərb utopik ənənələrindəki fərqli elementlərin birləşdirilərək müasir hibrid utopik modellərinin meydana çıxması, fərqli mədəniyyətlərin utopik ideallarının yeni və inkişaf edən müasir şəraitə uyğunlaşma qabiliyyətlərinin artmasını da aktuallaşdırmış olur.
- Daimi proqresə can atmaq, qlobal problemləri həll etmək, sülhü və ədaləti təşviq etmək, fərqli cəmiyyətlərin birgə fəaliyyətləri əsasında daha yaxşı bir dünya haqqında bəşəri miqyaslı utopik baxışları da aktual edir.
- Şərq və Qərb təlimlərindəki ənənəvi, amma mahiyyəti etibarı ilə gələcək kontekstli utopik baxışların müqayisəli təhlili, gələcək qlobal fəlsəfi əməkdaşlıqların da effektivliyini xeyli dərəcədə artırır.

Dissertasiyada fəlsəfə tarixində utopik ideyalar irəli sürən qədim Şərq və Qərb filosoflardan Konfutsi, Men-Tszı, Lao-Tszı, Mo-Tszı, Platon, eləcə də qədim Hind dini fəlsəfi təlimlərindən olan buddizm və hinduizmdəki utopik görüşlər müqayisəli şəkildə təhlil edilir. Orta əsr İslam mütəfəkkirlərindən bilavasitə utopiya, ərdəmli şəhər, fəzilət probleminə xüsusi olaraq əsərlər həsr etmiş Fərabi, İbn Bəcca, İbn Tufeyl, İbn Nəfisin görüşləri təhlil olunur.[1] Eləcə də, orta

[1] Farabi. El-Medinetü'l Fazıla / Farabi. Çeviren: Nafiz Danışman. – Ankara: ABC Matbaası, – 2001. – 124 s.; İbn Bacce. Tedbiri'l-Mütevahhid (Erdemsiz şehirde bireyin felsefi yetkinliği) / İbn Bacce. Çevirmen: İlyas Özdemir. – İstanbul: Endülüs Yayınları, – 2020. – 238 s.; İbn Tufeyl. Hay Bin Yakzan / İbn Tufeyl. Çeviri: Babanzade Reşid. – İstanbul: Palto Yayınevi, – 2014. – 132 s.; İbnü'n-Nefis. Fazıl bin Natık (Er-Risaletü'l-Kamiliyye Fi's-Sireti'n-Nebeviyye) / İbnü'n-Nefis. Çeviri: Cevher Şulul. – İstanbul: İnsan Yayınları, – 2021. – 132 s.

əsrlərdən müasir dövrədək İslam dünyasında utopizm ilə səsləşən fikrilər irəli sürmüş İbn Miskəveyh, Maverdi, İbn Həzm, Əbu Nəcib Sührəvərdi, Ədudüddin əl-İci, İbn Xəldun, Cəlaləddin Dəvvani, Kınalızadə Əli Əfəndi, Sədrəddinzadə Məmməd Əmin Şirvani kimi alimlərin əsərlərinə də istinadlar edilmişdir.

Dissertasiyanın növbəti fəsillərində orta əsrlər Çin mütəfəkkirlərindən Tao Yuanminq, Tsao Syuetsin, Kanq Yuvey, Hu Şinin utopik görüşləri, İntibah dövrü utopistlərindən Tomas Mor, Tomazzo Kampanella, Yeni dövr Qərb filosof və sosioloqlarından Frensis Bekon, Fransua Mari Şarl Furye, Anri Sen-Simon, Robert Ouen, Karl Marksın utopik baxışları təhlil olunur.

XX əsrin filosoflarından utopiya problemini xüsusi olaraq təhlil edən Karl Manheym, Ernst Blox, Herbert Markuze, Pol Rikor kimi alimlərin əsərlərində utopiya problemi müqayisəli şəkildə araşdırılmışdır.[1]

Eləcə də, Azərbaycan folklorundakı utopiklik motivləri, qədim dini fəlsəfi dünyagörüşlərindən olan zərdüştilik, manilik,

---

[1] Mannheim, Karl. Ideology and Utopia: An Introduction to the Sociology of Knowledge / Karl Mannheim. – London and Henley: Routledge & Kegan Paul, – 1979. – 351 p.; Mannheim, Karl. Freedom, Power and Democratic Planning: Collected Works Volume Four / Karl Mannheim. – New York: Routledge, – 2007. – 409 p.; Marcuse, Herbert. Marxism, Revolution and Utopia. Collected Papers of Herbert Marcuse. Volume Six / Herbert Marcuse. – London and New York: Routledge Taylor & Francis Group, – 2014. – 457 p.; Marcuse, Herbert. Philosophy, Psychoanalysis and Emancipation. Collected Papers of Herbert Marcuse. Volume Five / Herbert Marcuse. – London and New York: Routledge Taylor & Francis Group, – 2011. – 256 p.; Marcuse, Herbert. Studies in Critical Philosophy / Herbert Marcuse. – Boston: Beacon Press, – 1972. – 238 p.; Bloch, Ernst. A Philosophy of The Future / Ernst Bloch. Translated By John Cumming. – New York: Herder and Herder, – 1970. – 168 p.; Bloch, Ernst. Atheism in Christianity: The Religion of the Exodus and the Kingdom / Ernst Bloch. – London/New York: Verso, – 2009. – 283 p.; Bloch, Ernst. The Utopian Functon of Art and Literature: Selected Essays. Studies in contemporary German social thought / Ernst Bloch. – Cambridge, Massachusetts: MIT Press, – 1996. – 356 p.; Bloch, Ernst. The Principle of Hope. Volume One / Ernst Bloch. Translated by Neville Plaice, Stephen Plaice and Paul Knight. – Cambridge, Massachusetts: MIT Press, – 1996. – 494 p.; Ricoeur, Paul. Lectures on Ideology and Utopia / Paul Ricoeur. – New York: Columbia University Press, – 1986. – 389 p.

məzdəkilik və xürrəmilikdəki sosial ədalət problemi, Azərbaycan ictimai-fəlsəfi fikir tarixində Nizami Gəncəvi, Cəmaləddin Əfqani, Mirzə Fətəli Axundzadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə kimi mütəfəkkirlərin görüşlərində əks olunan utopik ideyalar da tədqiqat işində öz əksini tapmışdır.

Dissertasiyada Şərq və Qərbdə utopiya problemini fəlsəfi cəhətdən tədqiq edən, eləcə də, bu mövzuya yaxın problemləri işıqlandıran tədqiqatçıların əsərlərinə də müraciətlər olunmuşdur. Belə tədqiqatçılara misal olaraq, İ.Məmmədzadə, R.Aslanova, S.Xəlilov, K.Bünyadzadə, A.Hacıyeva, Q.Mürşüdlü, Z.Qasımov, C.Mustafayev, F.Cameson, R.Levitas, R.Nozik, K.Kumar, J.Loo Liu, J.Datton, J.Aqar, J.Biçer, F.Brusadelli, C.Qreqory, A.Hatzistavrou, D.Ko, M.Lauri, Z.Lonqksi, X.Tian, R.Bader, S.Banerji, R.Boer, S.Bundşsux, S.Kollins, L.Dahlberq, J.Danaher, D.Engels, S.Ciri, C.Houston, V.Hudson, L.Ray, F.Ruda və digərlərini misal göstərmək olar.[1]

---

[1] İlham Məmmədzadə, Samirə Dadaşova. Süni intellekt və yeni təfəkkür tərzi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya institutu. Şərq fəlsəfəsi problemləri jurnalı, – 2022. № 27, – s.5-11.; Aslanova, R. Tarixə fəlsəfi baxış / R.Aslanova. – Bakı: Elm və təhsil, – 2021. – 440 s.; Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər / S.Xəlilov. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 2004. – 624 s.; Bünyadzadə, K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk / K.Bünyadzadə. – Bakı: Nurlan, – 2006. – 242 s.; Hacıyeva, A. Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: Hermenevtik təcrübələr / A.Hacıyeva. – Bakı, Elm və təhsil, – 2017. – 307 s.; Mürşüdlü Qəmər. Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: "ULU" İKF, – 2019. – 141 s.; Jameson, Fredric. Archaeologies of the Future: The Desire Called Utopia and Other Science Fictions / Fredric Jameson. – London/New York: Verso, – 2005. – 448 p.; Levitas, Ruth. The Concept of Utopia / Ruth Levitas. – Bern: Peter Lang, – 2010. – 284 p.; Nozick, Robert. Anarchy State and Utopia / Robert Nozick. – Oxford/Cambridge: Blackwell, – 1999. – 381 p.; Kumar, Krishan. Aspects of the Western Utopian Tradition // Thinking Utopia: Steps into Other Worlds. Edited by Jörn Rüsen, Michael Fehr and Thomas W. Riegers. – New York/Oxford: Berghahn Books, – 2005. – pp. 17-31.; Liu, JeeLoo. An Introduction to Chinese Philosophy: From Ancient Philosophy to Chinese Buddhism / JeeLoo Liu. – Oxford: Blackwell Publishing, – 2006. – 456 p.; Dutton, Jacqueline. "Non – western" utopian traditions // The Cambridge companion to utopian literature. Edited by Gregory Claeys. – Cambridge: Cambridge University Press, – 2010. – pp. 223-258.; Agar, Jolyon. Post – Secularism, Realism and

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini qədim dövrlərdən başlayaraq Şərq və Qərb fəlsəfə tarixlərində təcəssüm edən utopik fikirlər və utopik təlimlərin ayrılıqda tədqiqi, eləcə də onların fəsləfi əsaslarının öyrənilməsi təşkil edir. Tədqiqatın

---

Utopia: Transcendence and immanence from Hegel to Bloch / Jolyon Agar. – London and New York: Routledge Taylor & Francis Group, – 2014. – 252 p.; Beecher, Jonathan. Charles Fourier: The visionary and his world / Jonathan Beecher. – Berkeley/London: University of California Press, – 1986. – 640 p.; Brusadelli, Federico. Confucian Concord: Reform, Utopia and Global Teleology in Kang Youwei's Datong Shu / Federico Brusadelli. – Leiden/Boston: Brill, – 2020. – 207 p.; Claeys, Gregory. Dystopia a natural history: A study of modern despotism, its antecedents, and its literary diffractions. Gregory Claeys. – Oxford: Oxford University Press, – 2017. – 569 p.; Hatzistavrou, Antony. Plato and the utopia within us // Utopias in Ancient Thought Edited by Pierre Destrée, Jan Opsomer and Geert Roskam. – Berlin/Boston: Walter de Gruyter GmbH, – 2021. – pp. – 145-165.; Ko, Dorothy. Bodies in Utopia and Utopian Bodies in Imperial China // Thinking Utopia: Steps into Other Worlds. Edited by Jörn Rüsen, Michael Fehr and Thomas W. Riegers. – New York/Oxford: Berghahn Books, – 2005. – pp. 89-103.; Lauri, Marco. Utopias in the Islamic Middle Ages: Ibn Ṭufayl and Ibn al – Nafīs // Utopian Studies, Vol. 24, No. 1. The Pennsylvania State University: University Park, PA, – 2013. – pp. 23-40.; Longxi, Zhang. The Utopian Vision, East and West // Thinking Utopia: Steps into Other Worlds. Edited by Jörn Rüsen, Michael Fehr and Thomas W. Riegers. – New York/Oxford: Berghahn Books, – 2005. – pp. 207-229.; Tian, Xiaofei. From the Eastern Jin through the early Tang (317–649) // The Cambridge History of Chinese Literature. Edited by Kang-i Sun Chang and Stephen Owen. Volume 1. To 1375. – Cambridge: Cambridge University Press, – 2010. – pp. – 199-285.; Boer, Roland. China // The Palgrave Handbook of Utopian and Dystopian Literatures. Editors Peter Marks, Jennifer A.Wagner Lawlor, Fatima Vieira. – Cham: Palgrave Macmillan, – 2022. – pp. 672-628.; Engels, David. Tao Yuanming's 'Peach Blossom Source' and the Ideal of the 'Golden Age' in Classical Antiquity: Utopias in Ancient China and Classical Antiquity // Utopias in Ancient Thought Edited by Pierre Destrée, Jan Opsomer and Geert Roskam. – Berlin/Boston: Walter de Gruyter GmbH, – 2021. – pp. 277-303.; Giri, Saroj. The Happy Accident of a Utopia // An American Utopia: Dual Power and the Universal Army. Edited by Slavoj Žižek. – London/New York: Verso, – 2016. – pp. 133-145.; Ray, Larry. After 1989: Globalization, Normalization, and Utopia // Globalization and Utopia: Critical Essays. Edited by Patrick Hayden and Chamsy el – Ojeili. – New York: Palgrave Macmillan, – 2009. – pp. 101-116.; Ruda, Frank. Jameson and Method: On Comic Utopianism // An American Utopia: Dual Power and the Universal Army. Edited by Slavoj Žižek. – London/New York: Verso, – 2016. – pp. 183-210.

predmeti isə, Antik dövrdən başlayaraq müasir dövrədək Şərq və Qərb fəlsəfə tarixlərində formalaşmış utopik düşüncələrin müqayisəli təhlili, eləcə də onlar arasında bənzər və fərqli məqamların üzə çıxarılmasından ibarətdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi həm Şərq, həm də Qərb fəlsəfəsində utopik düşüncələrin yaranma mühiti və bunun fəlsəfi izahı, eyni zamanda, bu baxışların bir-birinə təsirlərini öyrənməkdir. Bu məqsədlərdən çıxış edərək, dissertasiyanın utopik şüurun formalaşmasını şərtləndirən amillərin məcmusunu müəyyən etmək, Şərq və Qərbdə ilkin utopik fikirlərin formalaşması, orta əsrlərdəki inkişafı, İntibah dövründə yüksəlişi, yeni dövrdə və XX əsrin Şərq və Qərb dünyasında mədəni və ideoloji transformasiyalar kontekstində utopik paradiqmaların təkamülünü fəlsəfi şərh etmək kimi əsas vəzifələri müəyyən edilib.

**Tədqiqat metodları**. Tədqiqat işinin nəzəri əsasını müxtəlif dövrlərdə filosoflar tərəfindən irəli sürülmüş fəlsəfi fikirlərin mahiyyətindəki utopizmin təhlililə bağlı konseptual yanaşmalar təşkil edir. Şərq və Qərb arasında utopik cəmiyyətə nail olmaq üçün fəlsəfi əsaslar və yanaşmalardakı fərqlər hər bir regionun dünyagörüşünü formalaşdıran fərqli mədəni, tarixi və fəlsəfi ənənələri əks etdirir. Hər ikisi daha yaxşı cəmiyyət arzusunu bölüşsə də, utopiya anlayışına müxtəlif rakurslardan, müxtəlif üsullarla yanaşırlar. Tədqiqat işində analiz və sintez metodlarından istifadə edilmişdir. Həm Şərq-Qərb fəlsəfəsi dixotomiyasının, həm də fəlsəfə tarixində faktların təhlilində müqayisəli, tarixi-müqayisəli, tarixi-genetik, tarixi-tipoloji, tarixi-sistem metodlarından, aksioloji yanaşma prinsipindən istifadə olunmuşdur. Dissertasiya işinin mənbə bazasını filosofların əsərləri, utopiyanın mənşəyi, inkişafı ilə bağlı komparativistik araşdırmalar təşkil edir. Dissertasiya işinin metodologiyası bütövlükdə tədqiqatın məzmununu əhatə edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Utopiya anlayışının ümumi mahiyyətini fəlsəfi fikir tarixi kontekstində müqayisəli şəkildə araşdırmaq;
- Müasir dövrdə transformasiyalara məruz qalan sosial utopiyaların virtual və ya kiberutopiya kimi tiplərini təyin etmək;

- Qədim dövrlərdə Şərqdə və Qərbdə formalaşmış ideal cəmiyyət haqqında ilkin fəlsəfi fikirləri ayrılıqda tədqiq və müqayisəli təhlil etmək;
- Orta əsrlərdə İslam coğrafiyası, Uzaq Şərq və Qərbdə cəmiyyət haqqında utopik ideyaların meydana gəlməsini tədqiq etmək və bu ideyaların fəlsəfi mahiyyətlərini açmaq;
- İntibah dövrü Qərb utopik təlimlərinin inkişaf dinamikalarını izləmək;
- Yeni dövrdə Uzaq Şərq və Qərbdə inkişaf etdirilən sosial utopiyaları təhlil etmək;
- XX əsrin Qərb dünyasında mədəni və ideoloji transformasiyalar kontekstində utopiya problemini tədqiq etmiş filosofların utopik paradiqmalarının təkamülünü araşdırmaq;

**Tədqiqatın elmi yeniliyi.** Elmi yenilikləri ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi sadalamaq olar:

- Sosial utopiya probleminin fəlsəfi problem və öz daxili inkişaf qanunauyğunluqlarına malik olması, digər oxşar fəlsəfi problemlər ilə müqayisəli şəkildə əks olunmuşdur.
- Qədim dövrlərdən başlayaraq yunan, Uzaq Şərq, İslam, Renessans, Yeni dövr və eləcə də, XX əsr Qərb utopiya modellərinin özünəməxsus xüsusiyyətləri fəlsəfi cəhətdən təhlil və izah olunmuşdur.
- Sosial utopiya probleminin indiki zamanda doğulan gələcək kontekstli bir fenomen olma paradiqması ortaya qoyularaq müqayisəli təhlil edilmişdir.
- İslam utopik təlimlərinin gələcək yox keçmiş, ilkin İslam modelinə uyğunlaşdırılması əsaslandırılmışdır. Bu məsələ İslam dünyasında bilavasitə utopik problemlər, fəzilət, ərdəm məsələlərinə toxunan mütəfəkkirlərin irsləri əsasında xronoloji olaraq tədqiq edilmişdir.
- Fəlsəfə tarixində ən qədim və köklü utopik ənənələrdən biri olan Çin utopizmi, Qədim dövrdən müasir dövrədək xüsusi olaraq geniş şəkildə tədqiq olunmuşdur. Müasir "Çin möcüzəsinin" qədim ənənələrdən qaynaqlanan utopiyaların gerçəkləşməsi olduğu əsaslandırılmışdır.

- XX əsr Qərb fəlsəfəsində utopiya problemi, bu problemi tədqiq edən filosofların əsərləri əsasında müqayisəli şəkildə tədqiq olunmuşdur.
- Azərbaycan fəlsəfi fikir tarixində utopik düşüncələr ümumi olaraq fəlsəfi təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Bütövlükdə fəlsəfə bəşəriyyətin ümumi, ortaq mənəvi mədəniyyətinin önəmli tərkib hissəsidir. Bu anlamda həm Şərq, həm də Qərb fəlsəfəsinin nümayəndələri tərəfindən əsrlər boyu təkmilləşdirilən utopik fikirlər əlaqəli şəkildə nəzərdən keçirilməlidir. Bu araşdırma demək olar ki, fəlsəfə tarixinin yarandığı gündən aktuallaşan sosial utopiya probleminin öyrənilməsinin zəruriliyini bir daha göstərir. Fəlsəfə tarixinin müxtəlif dövrlərində formalaşan utopik nəzəriyyələrin müqayisəli tədqiqi universitetlərdə fəlsəfə, sosiologiya, siyasi nəzəriyyə, idarəetmə və bir sıra digər fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın ayrı ayrı hissələri müxtəlif elmi jurnallarda dərc edilmiş, ayrı-ayrı elmi konfranslarda elmi ictimaiyyətə təqdim edilmişdir. Dissetasiya ilə bağlı 17 elmi əsərlər çap olunub. Mövzu ilə bağlı 7 məqalə (biri xaricdə) və 10 konfrans materialı (biri xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, yeddi (7) yarımfəsili özündə birləşdirməklə üç (3) fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

İşin həcmi 139 səhifədir. Giriş 8 səhifə, I fəsil 32 səhifə, II fəsil 42 səhifə, III fəsil 26 səhifə, nəticə 11 səhifə, ədəbiyyat siyahısı 18 səhifədir. İş ədəbiyyat siyahısız 232 606 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və

vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

Dissertasiyanın birinci fəsli **"Utopiyanın nəzəri modeli Şərq və Qərb dünyagörüşü paradiqmaları kontekstində**" adlanır. Bu fəsil iki bölmədən ibarətdir. "**Fəlsəfi fikir tarixində utopiya problemi**" adlanan birinci yarımfəsildə, "utopiya" anlayışı, sosial utopiyanın mahiyyəti, utopiya və arzu, utopiya və təxəyyül, utopiya və ya "başqa məkan", utopiya və humanizm, utopiya və anti-utopiya dualizmi, utopiya və qlobalizm, virtual utopiya, kiberutopizm kimi problemlər təhlil olunur.

Bu yarımfəsildə qeyd olunur ki, utopiya humanist və kosmopolit mahiyyətə sahibdir. "*Utopiya anlayışı mahiyyəti etibarı ilə paradoksal və eləcə də produktivdir. Çünki o, xəyali "məkansız" olanı, "yaxşı məkana" çevirmək vəzifəsi daşıyır*".[1] Utopiya həmçinin, mahiyyətcə daima pozitiv olan bir fenomendir. O, neqativliklərdən doğduğu və onun elementlərinə qarşı çağırış olduğundan, utopiyanın bədbin məzmun kəsb etməsi, məntiqi olaraq da mümkünsüzdür. "*Utopiyanın mahiyyəti arzudur. Fərqli, daha yaxşı həyat tərzi arzusudur*".[2] Gerçəklikdən qaçış da bu arzuya doğrudur. Onun həyata keçməsi üçün yaradıcı qüvvənin qorunması əsas şərtlərdən biridir. Bu məntiqdən çıxış etdikdə reallıqdan uzaqlaşma, utopiyanın gerçəkləşməsini yaxınlaşdırmaqdır. Çünki, neqtiv amillərdən tez bir zamanda uzaqlaşmaq gələcəyin modelini qurmaq üçün hesablanmış enerji sərfini də azaltmış olur. "*Utopiya həyata keçirilməmiş gələcəyə işarə edir və arzu olunan gələcək dünyanın təsvirindən ibarətdir*".[3] Utopik düşüncə daima önə baxdığı üçün, onun mahiyyətində arzu ilə yanaşı, həm də tədbirli olmaq məntiqi də ehtiva olunur. Çünki, gələcəyi inşa etmək üçün arzu və

---

[1] Benson, Timothy O. Fantasy and Functionality: The Fate of Utopia // Expressionist Utopias: Paradise, metropolis, architectural fantasy. – Washington: University of Washington Press, – 1993-1994. – pp. 12-55., s. 47.

[2] Levitas, Ruth. The Concept of Utopia / Ruth Levitas. – Bern: Peter Lang, – 2010. – 284 p., s. 209.

[3] Hodgson, Geoffrey M. Economics and Utopia: Why the Learning Economy is not the end of History / Geoffrey M Hodgson. – London and New York: Routledge, – 2001. – 359 p., s. 5.

xəyal kifayət etmir. Bunun üçün müəyyən qüvvənin də olması vacibdir. Bu cəhətdən, istər Şərq, istərsə də Qərb utopik təlimlərində öz əksini tapan utopik proyeksiyalarda, onun necə olması və nə formada həyata keçirilməsi incəlikləri ilə ifadə olunur.

Müasir dünyada utopiyanın daha müasir formaları meydana gəlir. Bunlardan ən nümunəviləri də müasir dövrün elementləri olan virtual və ya kiberutopiyadır. "*Virtual utopiya, bayağılıq, bilik və texnoloji aqnostisizm vəziyyətlərilə xarakterizə olunan mümkün dünyalar toplusudur*".[1] Virtual utopiyanın ənənəvi utopiyalar kimi, konkret olaraq vahid məqsədləri yoxdur. O, müasir rəqəmsal dünyanın reallıqları fonunda törəyən bir fenomendir. Onu proqnozlaşdırmaq, eləcə də mənfi və ya müsbət kimi dəyərləndirmək də olduqca çətindir. "*Kiberutopizm bir qayda olaraq klassik utopiya ilə bağlı əsərlərdə olduğu kimi müfəssəl sosial layihələr təklif etmədən, internet məkanında daha yaxşı həyat barədə qeyri-müəyyən fikirlər formalaşdırır*".[2] Kompüter utopiyaları və süni intellekt arası əlaqə məsələləri də aktualdır. Süni intellekt məsələsinin fəlsəfi cəhətdən tədqiqi İlham Məmmədzadənin tədqiqatlarında da öz əksini tapmışdır.[3]

Birinci fəslin ikinci yarımfəsli "**Qədim Şərq və Qərb fəlsəfəsində utopik düşüncələr**" adlanır. Dissertasiyanın bu yarımfəslində qədim Çində konfusiçilik, daosizm və moizm təlimlərindəki utopik fikirlər, qədim Hindistanda buddizm və hinduizmdəki dini-fəlsəfi dünyagörüşləri və Platonun utopizmi tədqiq olunmuşdur.

Bu yarımfəsildə qeyd olunur ki, utopik görüşlərin daha qabarıq bir şəkildə əks olunduğu qədim Çin fəlsəfi sistemləri

---

[1] Danaher, John. Automation and Utopia: Human flourishing in a world without work. John Danaher. – Cambridge, Massachusetts, and London, England: Harvard University Press, – 2019. – 337 p., s. 230.

[2] Dahlberg, Lincoln. Libertarian Cyber-Utopianism and Global Digital Networks // Globalization and Utopia: Critical Essays. Edited by Patrick Hayden and Chamsy el-Ojeili. – New York: Palgrave Macmillan, – 2009. – pp. 176-189., s. 176.

[3] İlham Məmmədzadə, Samirə Dadaşova. Süni intellekt və yeni təfəkkür tərzi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya institutu. Şərq fəlsəfəsi problemləri jurnalı, – 2022. № 27, – s. 5-11.

konfusiçilik və daosizmdir. Qədim Çində meydana gələn ilk utopik fikirlər, birbaşa olaraq bu mədəniyyətin tarixi, qədim ənənələri, dini-mifoloji dünyagörüşü sistemlərilə də sıx şəkildə bağlı olmuşdur. Bilavasitə ənənələrdən doğularaq meydana gəlmişdir. Mahiyyəti etibarı ilə ənənələrin ilahiləşdirilməsi və sakrallaşdırılması paradiqmasına əsaslanan konfutsiçilikdə utopiya məsələsi də, üzvi bir şəkildə ənənələrin işığında aydınlaşdırılır.

Buddizmdə reallıqda mövcud olmaq, elə utopiyaya da qərq olmaqdır. Qədim Hind mədəniyyətinin əsas dini-fəlsəfi təlimlərindən olan buddizmdə utopiya gizli və daxilidir. Daxili başlayan utopiya xaricdə də utopiya olaraq tamamlanmış olur. Buddizimdə hər şey real yox, utopik məna kəsb etməkdədir. Nirvana prinsipilə dəyərləndirildikdə, buddizm iki utopiya arasında mövcud olan dini təlimdir.

Platonun fəlsəfi cəhətdən yanaşdıqda son dərəcə dərinliyilə seçilən utopizmində, fərqli problemlərin və müxtəlif məsələlərin kombinasiyaları mövcuddur. Platon utopiyanın fəlsəfi mahiyyətini ümumilikdə rasionallıq, yəni inasnın rasional tələbilə də eyniləşdirirdi. Onun utopik proqramı rasional utopiya kimi də xarakterizə oluna bilər. "*Platon görə daxilimizdəki utopiya əqlin hökmüdür*". [1] Dissertasiyanın birinci fəslində araşdırılan bəzi problemlər məqalələr şəklində də dərc olunmuşdur.[2]

Dissertasiyanın "**Sosial utopiya Şərq fəlsəfi fikir tarixinin elementi kimi**" adlanan ikinci fəsli üç bölmədən ibarətdir. "**İslamda utopik fikirlərin formalaşması və inkişafı xüsusiyyətləri**" adlı birinci yarımfəsildə, İslam mütəfəkkirlərindən bilavasitə utopiya, ərdəmli şəhər, fəzilət probleminə xüsusi olaraq əsərlər həsr etmiş Fərabi, İbn Bəcca, İbn Tufeyl, İbn Nəfisin görüşləri təhlil olunur.

Bu yarımfəsildə qeyd olunur ki, "*Farabinin fəzilətli*

---

[1] Hatzistavrou, Antony. Plato and the utopia within us // Utopias in Ancient Thought Edited by Pierre Destrée, Jan Opsomer and Geert Roskam. – Berlin/Boston: Walter de Gruyter GmbH, – 2021. – pp. – 145-165., s. 145.

[2] Qarayeva, G. Utopiya və antiutopiya ictimai şüurda dinamikliyin təzahürü kimi // – Bakı: Sivilizasiya, – 2016, № 31, – s. 14-19.; Qarayeva, G. Bəşəriyyətin ən böyük utopiyası: vahid din və vahid mədəniyyət // – Bakı: Sivilizasiya, – 2018, № 37, – s. 49-53.

*dövlətində bütün sosial quruluş din və qanunla bağlıdır*".[1] Fərabi bu konsepsiya daxilində tam bir harmoniyanın əldə edilməsinin mümkünlüyünü də göstərməyə çalışır. Din və qanunlarla ümumi nizamın təmin olunması, Fərabinin yaşadığı dönəmdə İslamın daxilində baş qaldıran bütün problemləri həll etmək iqtidarında olan amil kimi ayırd edilir.

İbn Bəccə ərdəmli şəhər və bu şəhərdə mütəvahidin mövqeyi və rolunu təyin etməyə çalşır. "*Ərdəmli şəhərin sakinləri arasında münaqişə olmadığından, onların tibb və hüquq kimi sənətlərə də ehtiyacları yoxdur*".[2] İbn Bəccanın təsvir etdiyi ideal cəmiyyətdə elə bir dərin harmoniya hökm sürür ki, burada insanlar tam sağlam və mütləq nizam, razılıq içərisində öz mövcudluqlarını sürdürürlər. Burada onları narahat edən, hüzurlarını pozan heç bir yad ünsürlər olmadığından, insanların səhhətləri də onlara narahatlıq vermir və bu şəhərin insanları daima sağlam qalırlar. Onların arasında münaqişələr olmadığından, bu şəhərdə hüquqa da ehtiyac duyulmur.

İbn Tufeylin sufi olması da, onun utopik düşüncələrinin formalaşmasına təsirsiz ötüşməmişdir. Sufizmdəki asketizm, tənhalıq, təkidünyalıq onun təlimində bir növ üstün bir formada utopikləşmişdir. İbn Tufeyl ilahiyyatın təsəvvüfə hücumlarını, onun ərkanının dinə zidd olmasını təbliğ etməsini də bu bağlamda tənqid edir. Utopik planda təsəvvüfə də müəyyən mənada haqq qazandırır, onun müdafiəçisinə çevrilir. İbn Tufeyl kamil insanın formalaşmasında din ilə yanaşı təsəvvüfə də xüsusi önəm verir. Təsəvvüfdə kamil insan konsepsiyası Könül Bünyadzadənin də tədqiqatlarında işıqlandırılmışdır.[3]

İbn Nəfis hesab edir ki, "*əgər insanlar şəriətin zəruri etdiyi*

---

[1] Lauri, Marco. The Philosopher's Solitude // The Individual and Utopia A Multidisciplinary Study of Humanity and Perfection. Edited by Clint Jones and Cameron Ellis. – London and New York: Routledge Taylor & Francis Group, – 2016. – pp. 279-294., s. 285.

[2] İbn Bacce. Tedbiri'l-Mütevahhid (Erdemsiz şehirde bireyin felsefi yetkinliği) / İbn Bacce. Çevirmen: İlyas Özdemir. – İstanbul: Endülüs Yayınları, – 2020. – 238 s., s. 82.

[3] Bünyadzadə, K. İnsan: kamilliyin arxitektonikası / K.Bünyadzadə. – Bakı: "Zərdabi LTD", – 2014. – 496 s.; Bünyadzadə, K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk / K.Bünyadzadə. – Bakı: Nurlan, – 2006. – 242 s.

*hökmlərə adət etməyərək, bu hökmlər ilə tanış olmasaydılar, onda onlar peyğəmbəri inkar etməyə cəhd edərdilər*”.[1] İbn Nəfis utopiyanı, fəziləti, ideal cəmiyyət və toplum modelini kənarda, xəyali bir formada yox, bilavasitə İslam və onun şəriətində axtarır. İbn Nəfisdə ideal obraz və nümunəvi həyat tipinin nümayişi peyğəmbərin yaşadığı həyat və onun dövründəki İslam toplumunun tipidir.

“**Orta əsrlədən ən müasir dövrdədək Uzaq Şərqdə utopik fikirlər**” adlanan ikinci yarımfəsildə orta əsrlərdə Uzaq Şərqdə formalaşan utopik fikirlər və bu fikirlərin poeziyada əksi, eləcə də yeni dövrdə meydana gələn siyasi utopik baxışlar tədqiq edilmişdir.

Bu yarımfəsildə qeyd olunur ki, Tao Yuanminqin təbliğ etdiyi sülh, razılıq, əminamanlıq, harmoniya kimi ideyalar konfutsiçilik, daosizm və moizmdə də əsas utopik konsepsiyalardan olduğu halda, fərqlər də vardır. T.Yuanminq orta əsr Çin cəmiyyətinin daha yaxşı inkişafı və sosial həyatın daha əsaslı olması naminə qeyd olunan bu məqamları aradan qaldırmağı tələb edirdi. Onun çağırışları üsyankar xarakterli deyil. “*Tao Yuanminqin “Şaftalı baharı” əsəri vergi və iyerarxiya kimi gündəlik sosial məhdudiyyətlərin olmadığı və hamının məmnunluq içində yaşadığı utopik bir cəmiyyəti təsvir edir*”.[2]

Tsao Syuetsində əsas Çin ədəbi-fəlsəfi təlimlərindəki utopik ideyaların qədim dövrün fəlsəfi ənənələrilə sinkretik vəhdətini görmək mümkündür. İdeya cəhətdən fərqlənən konfutsiçilik və daosizm arasında bağların qurulması bu mənada olduqca vacib bir hadisədir. Bu vəhdət daha təkmil fəlsəfi ideyaların meydana gəlməsinə olduqca münbit bir zəmin hazırlamışdır. Tsao Syuetsinin “Qırmızı otaqda yuxu” romanında “*bir-birinə zidd olan iki Çin utopik ənənəsinin ideya cəhətdən təkmilləşdirilməsini görmək olar ki, bunlar da real praqmatizmi ilə konfutsiçilik və transsendental*

---

[1] İbnü’n-Nefis. Fazıl bin Natık (Er-Risaletü’l-Kamiliyye Fi’s-Sireti’n-Nebeviyye) / İbnü’n-Nefis. Çeviri: Cevher Şulul. – İstanbul: İnsan Yayınları, – 2021. – 132 s., s. 58.

[2] Tian, Xiaofei. From the Eastern Jin through the early Tang (317-649) // The Cambridge History of Chinese Literature. Edited by Kang-i Sun Chang and Stephen Owen. Volume 1. To 1375. – Cambridge: Cambridge University Press, – 2010. – pp. – 199-285., s. 221.

*metafizikası ilə daosizmdir*”.[1]

Kanq Yuvey öz siyasi proqramını, məhz konfutsiçiliyə əsaslanaraq tərtib etmişdir. “*Kanqın utopiyası da Konfutsi ideallarına əsaslanan formada dövlətin istənilən sahəsində şəxsi maraqların ləğvini təbliğ edirdi*”.[2]

“**Azərbaycan ictimai-fəlsəfi fikir tarixində utopik görüşlər**” adlanan üçüncü yarımfəsildə Azərbaycan folklorundakı utopik motivlər, qədim dini fəlsəfi təlimlərdən olan zərdüştilik, manilik, məzdəkilik və xürrəmilikdəki sosial ədalət problemi araşdırılır. Azərbaycan ictimai-fəlsəfi fikir tarixində Nizami Gəncəvi, Cəmaləddin Əfqani, Mirzə Fətəli Axundzadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə irsində öz əksini tapan utopik ideyalar təhlil edilir.

Bu yarımfəsildə qeyd olunur ki, Azərbaycan ictimai-fəlsəfi fikir tarixində utopik ideyaların formalaşmasında folklor nümunələri xüsusi rol oynamışdır. Azərbaycan nağıllarında ideallıq arzusu öz ifadəsini tapmışdır.

“Məlikməmməd nağılı”nda Məlikməmmədin obrazı, düzgün, cəsarətli, ədalətli və qüvvətli bir simvol kimi təsvir olunur. Nağılda onun qələbəsi həqiqət və ədalətin bərpasını da ifadə edir. Div üzərində qazanılan bu zəfər zülm və ədalətsizlik üzərində də qalib gəlmək düşüncəsilə sıx şəkildə əlaqəlidir. “Məlikməmməd nağılı”nın süjeti sosial utopiya paradiqmasını özündə ehtiva edən qədim Azərbaycan arxetiplərinin müəyyən mənada bədiləşmiş ifadəsidir.

Məzdəkiliyin utopiyası sosial ədalət, sərvətlərin bərabər bölüşülməsi, zəhmətkeş xalqın mənafeyini qorumaq və bu qəbildən olan digər ideyaların açıq şəkildə təbliğindən ibarətdir. Məzdək hərəkatı üzvlərinin tələb etdikləri ideal cəmiyyətdə, qadınlar da sosial ədalətin əsas göstəricisi olan azadlığa sahib olmalıdırlar.

---

[1] Ferrara, Mark S. Religion and the Mental Utopia in Literature // The Individual and Utopia A Multidisciplinary Study of Humanity and Perfection. Edited by Clint Jones and Cameron Ellis. – London and New York: Routledge Taylor & Francis Group, – 2016. – pp. 315-329., s. 324.

[2] Brusadelli, Federico. Confucian Concord: Reform, Utopia and Global Teleology in Kang Youwei’s Datong Shu / Federico Brusadelli. – Leiden/Boston: Brill, – 2020. – 207 p., s. 130.

Tarix səhnəsində qısa müddət fəaliyyət göstərmələrinə baxmayaraq, xürrəmilər öz cəmiyyətləri daxilində etnik və dini ayrı-seçkiliklərə isə yol vermədi. Onlar hər kəsin bərabərhüquqlu olduğu bir cəmiyyət qurmağa çalışdı. Bu hərəkatın şüarları və əsas çağırışları ədalət və insanlar arasında ümumi rifahın əldə olunmasını özündə ehtiva edirdi. Bəşəri xoşbəxtlik düşüncəsi xürrəmilər üçün ən əsas məqsəd kimi təyin olunmuşdur.

Nizami Gəncəvi insanların mənəvi keyfiyyətlərini yaxşılaşdırmaq üçün əhəmiyyətli bir yol olan elm və əxlaq yolunu göstərərək utopik cəmiyyətin formasını da təyin edir. Onun ideal cəmiyyətində yüksək fəzilət və bəşəri ərdəm əxlaq, təlim və tərbiyyə nəticəsində əldə olunur.

C.Əfqani ideal dövlətin qurulmasının təməlində təbii ki, İslam dininin özünü görürdü. O, İslam dünyasının sanki xilas edilməsi üçün son bir cəhd kimi, bütün müsəlmanların bir Xilafətdə birləşdirilməsi ideyasını müdafiə etmişdir.

Cəhalətin barışmaz düşməni olan M.F.Axundzadə zülmə əsaslanan idarəçilikdə insanların xoşbəxtlikdən məhrum olduqlarını açıb göstərirdi. Axundzadə dinin dünyəviləşməsini də arzulayırdı. Axundzadə bu yolda böyük fədakarlıqlar nümayiş etdirir və əsas bildiyi yenilənmə proseslərinə mane olan amillərin aradan qaldırılmasını tələb edirdi.

Əhməd bəy Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri onun ideallarını ifadə edir. Əsərdə tiran, despot hakimlərin hökm sürdüyü cəmiyyətdən, azadlığın, düzgünlüyün, ədalətin başlıca meyar olduğu cəmiyyətə düşmüş gənc insanın tərəddüdləri, qorxuları, heyrəti təsvir olunur.

N.Nərimanova görə, dövlətin qurulmasının təməlində xalqa sevgisizlik, qayğısızlıq, laqeydlik varsa, onun məhvinin labüd olacağı da öncədən məlumdur. O, sosial dəyişikliklərin cəmiyyətdə həyata keçirilməsinin yalnız iqtisadi və siyasi dəyişikliklərlə deyil, həm də mənəvi dəyişikliklərlə də baş verəcəyinə inanmışdır. Arzu Hacıyeva da hesab edir ki, "*N.Nərimanov Nadir şahın həyata keçirtmək istədiyi islahatlarda öz dövlətçilik baxışlarını ifadə edir. Nadir şah isə dövləti möhkəmləndirmək üçün dörd məsələni önə çəkir: əvvəla, iki düşməni sünni və şiə məzhəblərini barışdırmaq...*

*İkincisi, İncili tərcümə etdirmək istəyir ki, idarə etdiyi ölkədə qeyri tayfaların dinini bilib, ona müvafiq hərəkət etsin. Üçüncü niyyəti isə "mollaların ixtiyarını azaltmaqdır... Dördüncü... O istəyir ki, padşahlığında... fəqir və sail tapılmasın, çünki kasıb və dilənşisi çox olan dövlət tez puç olar".*[1]

M.Ə.Rəsulzadənin baxışlarında da utopik elementləri görmək mümkündür. Rəsulzadə ideal dövlətin başlıca prinsipi kimi həmrəylik ideyasını təqdim etmişdir. Çünki həmrəylik dövlətin, eləcə də cəmiyyətin müxtəlif tələbatlarını tənzimləyərək ədaləti, ictimai stabilliyi təmin etmək iqtidarındadır. Dissertasiyanın ikinci fəslində araşdırılan bəzi problemlər məqalələr şəklində dərc olunmuşdur.[2]

Dissertasiyanın üçüncü fəsli **"Qərb fəlsəfi fikir tarixində utopiya sosial yenidənqurmanın əsası kimi"** adlanır. **"Qərb İntibahı və Yeni dövr fəlsəfəsində utopik təlimlər"** adlı birinci yarımfəsildə Tomas Mor, Tomazzo Kampanella, Yeni dövr Qərb filosoflarındn Frensis Bekon, Fransua Mari Şarl Furye, Anri Sen-Simon, Robert Ouen, Karl Marksın utopik baxışları təhlil olunur.

Bu yarımfəsildə qeyd olunur ki, Morun dünyəvilik prinsipi onun utopik görüşlərinin doğulması üçün də əsas olmuşdur. "*Mora görə, utopik düşüncə rasional və dünyəvidir*".[3]

Tomazzo Kampanella "Günəş şəhəri" əsərində təsvir etdiyi cəmiyyətdə də xüsusi mülkiyyət yoxdur. Bu cəmiyyət teokratik xarakterli olduğu üçün vicdan azadlığı məsələsi arxa plana keçirdi. Baş rahib Günəş simvolu kimi xarakterizə olunur. Bu Günəşin üç

---

[1] Hacıyeva, A. Azərbaycan mütəfəkkirləri zamanın kontekstində: Hermenevtik təcrübələr / A.Hacıyeva. – Bakı, Elm və təhsil, – 2017. – 307 s., s. 165.

[2] Nəsiminin fəlsəfi görüşlərində ideal insan obrazı // – Bakı: Geostrategiya jurnalı, – 2017, № 42, – s. 63-64.; Bəşəriyyətin ən böyük utopiyası: vahid din və vahid mədəniyyət // – Bakı: Sivilizasiya, – 2018, № 37, – s. 49-53.; Əhməd Ağaoğlu "Sərbəst insanlar ölkəsində" əsərinin timsalında AXC dövründə ideal cəmiyyət obrazı // "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu idarəsi tərəfindən təşkil olunmuş Azərbaycan Cümhuriyyəti-100 adlı müsabiqə. – Bakı: Nurlan, – 2018, – s. 443-450.; Marx and Shariati: utopic socialism // – Львів: Вісник львівського університету. Філософсько-політологічні студії, – 2018. №19, – с. 103-107.

[3] Kumar, Krishan. Aspects of the Western Utopian Tradition // Thinking Utopia: Steps into Other Worlds. Edited by Jörn Rüsen, Michael Fehr and Thomas W. Riegers. – New York/Oxford: Berghahn Books, – 2005. – pp. 17-31., s. 27.

köməkçiləri vardır. Bunlardan güc – ordu və məhkəmə işlərinə baxır. Bilgi – xalq maarifi və sosial münasibətlərlə məşğul olur. Sevgi – ailə, artım məsələlərilə məşğuldur.

Furye utopizmi tarixi reallıq kimi başa düşürdü. Onun baş verəcəyinə, reallaşacağına şübhə etmirdi. O, tarixi gedişdə öz utopik modelinin həyat qazanacağına inanırdı.

Sen-Simonda artıq utopiyanın etika, etik kateqoriyalar ilə kəsişməsi də müşahidə olunur. O, utopiyaları doğuran iqtisadi və ictimai həyatdakı bərabərsizliklər və qüsurlar ilə mübarizənin yeni bir yolu kimi bəşəri xoşbəxtlik paradiqmasını irəli sürür. Bəşəri xoşbəxtlik məsələsi də, insanların fərqli fitrət və xislətdə olmalarından irəli gələn utopiyadır. "*Anri Sen-Simonun ümumilikdə bəşərə olan sevgisi, bütün insanlar arasında bərabərlik kimi mücərrəd prinsipə və ya bütün insanların bəşəri xoşbəxtlikdə bərabərliyi məsələsinə əsaslanır*".[1]

Ouen bütün məsələlərdə insan faktorunu önə çəkməyi – humanizm prinsiplərini nümayiş etdirməyi əsas sayırdı.

Marks insanların öz qabiliyyətlərinə uyğun töhfə verdikləri və ehtiyaclarına uyğun olaraq müqabilində aldıqları sinifsiz cəmiyyəti xəyali şəkildə yaradır. Bu prinsip iş və resursların bazar qüvvələri və ya mənfəət motivləri deyil, fərdi və kollektiv tələblər əsasında bölüşdürülməsi ideyasını əks etdirir. K.Mannheimə görə, "*sinifsiz cəmiyyət ideyası açıq-aşkar utopikdir*".[2]

**"Müasir Qərb fəlsəfi nəzəriyyələrində utopiya problemi"** adlı sonuncu yarımfəsildə XX əsrin filosoflarından utopiya problemini xüsusi olaraq təhlil edən Karl Manheym, Ernst Blox, Herbert Markuze, Pol Rikor kimi filosofların utopiya problemilə bağlı əsərləri təhlil olunur.

K.Manheym XX əsrin əvvələrində cəmiyyətlərin əsas bəlalarından olan ideologiya məsələsini, həm də tənqid edir. Qərbin ən böyük problemlərindən olan ideologiyanın fəasadlarını açaraq ortaya qoyurdu. O, utopiyanın hədəflərilə ideologiyanın hədəflərinin

---

[1] Фогт, А. Социальные утопии / А.Фогт. Пер. с нем. Н.И.Стороженко. Изд. 3-е. – Москва: КомКнига, – 2010. – 175 с., s. 126.

[2] Mannheim, Karl. Freedom, Power and Democratic Planning: Collected Works Volume Four / Karl Mannheim. – New York: Routledge, – 2007. – 409 p., s. 90.

fərqliliyini göstərməyə çalışırdı. "*İdeoloji və utopik təhriflərdən qaçmaq cəhdi son nəticədə reallıq axtarışıdır*".[1] Manheym utopizmi epistemoloji cəhətdən də qiymətləndirməyə çalışırdı. K.Mannheimə görə, "*əqlin vəziyyəti, ortaya çıxdığı reallıq vəziyyətilə uyğun gəlmədikdə utopiklik doğulur*".[2] İnsan təfəkkürü, ümumilikdə bəşər daima daha yaxşı olanın gözləntisindədir. İnsan əqli heç vaxt nail olduğu ilə qane olmur. Daima daha yaxşı, daha üstün olanın axtarışındadır. Əsrlər boyu bəşərin inkişafını da, məhz əqlin təbiətinə xas bu kimi təbii amillər şərtləndirmişdir. Bəşər olduğu müddətcə utopizm də daima olmuş və olacaqdır. Çünki bəşərin durmaq, fasilə vermək istədiyi bir nöqtə yoxdur. O, daima arzu və xəyallardadır. O hər zaman yaxşı, kamil, mükəmməllik axtarışındadır. Bu anlamda, utopiya əbədi axtarış və əbədi gözləntidir.

Pol Rikour yazır ki, "*utopiya bəyan edilmiş və ya iddia edilən janr olması ilə fərqlənir*".[3] Utopiya öncədən öz iddialarını bəyan edərək hamıya bildirir. Utopiyanın maiyyətində bir açıqlıq da vardır.

Ernst Bloxa görə, "*utopiya özünün son konkret reallaşması ilə bitməyərək oradan da başlayır*".[4] Utopiya reallaşdığı andan da, yeni funksionallıq qazanır. Utopiya daima mövcud olur. Bəşərin ideal axtarışları bitmədiyi kimi utopiyanın da bitməsi qeyri-mümkündür. Onun bitməsi ümidin də bitməsidir ki, fəlsəfi mənada bu cəmiyyətin də sonu deməkdir. Utopiyanın bitməsi ümidin də tükənməsidir ki, bu baş verdikdə bəşər də məhvə məhkum olmuş olur.

H.Markuze yazır ki, "*dünyanı cəhənnəmə çevirmək imkanımız var və biz artıq ona doğru gedirik. Onu cəhənnəmin əksinə çevirmək qabiliyyətimiz də var. Bu isə, həm utopiyanın sonu, həm də...,*

---

[1] Mannheim, Karl. Ideology and Utopia: An Introduction to the Sociology of Knowledge / Karl Mannheim. – London and Henley: Routledge & Kegan Paul, – 1979. – 351 p., s. 87.

[2] Yenə orada, – s. 173.

[3] Ricoeur, Paul. Lectures on Ideology and Utopia / Paul Ricoeur. – New York: Columbia University Press, – 1986. – 389 p., s. 15.

[4] Bloch, Ernst. Atheism in Christianity: The Religion of the Exodus and the Kingdom / Ernst Bloch. – London/New York: Verso, – 2009. – 283 p., s. 249.

*"tarixin sonu" kimi də başa düşülərdi*".[1] H.Markuzeyə görə, utopiyanın can atdığı ideal cəmiyyət ideyasının özü də, tam mənada utopikdir. Çünki belə cəmiyyətin meydana gəlməsi, antoqonist tərəfin itməsidir. Əks və utopiyanı təşviq edən qütbün yox olaraq aradan qalxmasıdır. Bu isə, özlüyündə dövrün də itməsi və məhvin başlamasıdır. Əksiliklər daima mübarizədə olduğundan inkişaf da baş verir. Kəmiyyət dəyişiklikləri keyfiyyət dəyişikliklərinə keçir. Əks və ya zidd tərəflərdən birinin itməsi bütün bu dialektikanı məhv edir.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatın fəsillərində əldə edilmiş elmi-nəzəri müddəalar müqayisəli şəkildə ümumiləşdirilmişdir. Şərq və Qərb utopiyalarını bənzərliklər əsasında qruplaşdırsaq:

**1. Ümid və arzu**. Arzuolunan gələcək və onun proyektini indikindən daha kamil qurmaqda bəşər daima həmrəy olmuşdur. Şərq və Qərb utopiyalarında ümid və arzu faktorları daima öndə olduğundan, bu məkanların utopik təlimləri pessimist mahiyyətli deyillər. Ümid əsasında qurulan ümumi xöşbəxtlik, ideallıq və harmoniya axtarışları məsələsində hər iki məkanın utopik görüşləri ümumidir.

**2. İnam və əminlik**. Şərq və Qərb utopik təlimlərində indinin yenisilə əvəzlənəcəyinə inam və əminlik faktoru əsas olmuşdur. Həm Şərq, həm də Qərb utopik təlimlərində utopiyaların inam əsasında qurulması oxşar məqamlardandır. İnamın nikbinlik faktoru ilə möhkəmləndirilməsi Şərq və Qərb utopiyalarını optimist mahiyyətli edir.

**3. İsrar və fədakarlıq**. Şərq və Qərb utopiyaları üçün ümumi cəhət onların arzuladıqları ideal cəmiyyəti qurmaqda israr və fədakarlıq nümayiş etdirmələridir. Hər iki məkanın utopik düşüncələri ideallığa can atmaqda, ona çatmaqda son dərəcə israrlı olmuşdurlar.

---

[1] Marcuse, Herbert. Marxism, Revolution and Utopia. Collected Papers of Herbert Marcuse. Volume Six / Herbert Marcuse. – London and New York: Routledge Taylor & Francis Group, – 2014. – 457 p., s. 249.

Şərq və Qərbdə formalaşan utopik fikirlər arasındakı əsas fərqlərə gəldikdə:

**1. Ənənələrə bağlılıq və varislik**. Şərq utopiyaları daima ənənələrə sıx bağlılıq nümayiş etdirmişlər. Qərbdən fərqli olaraq, Şərq keçmişi, yaşanan tarixin izlərini daha çox özündə əks etdirərək yoluna davam etmişdir. Daima keçmişi də bu və ya digər formada indiyə və gələcəyin utopiyalarına proyeksiya edə bilmişdir. Ənənələrə bağlı olmaqdan irəli gələrək Şərq utopik fikrində varislik əlaqələri daha aydın özlərini göstərməkdədir. Qərb utopik modellərinə gəldikdə isə, qədimlərdən başlayaraq, günümüzədək Qərb ənənələr məsələsində daima daha praqmatik olması ilə səciyyələnmişdir. Qərb utopiyaları daima gələcək istiqamətlidir. Qərb təlimləri ənənələr və faydalılıq seçimində daima ikinciyə daha böyük önəm vermişlər. Qərbdə formalaşan utopik paradiqmalar, dövrlər üzrə daima fəqliliklər ilə qarşıya çıxırlar. Qərb utopik təlimləri daha iddialıdırlar və cəmiyyətləri fundamental olaraq dəyişməyi qarşıya əsas məqsəd olaraq qoyurlar. Qərbə utopik modeli kənarda axtarmaq da xasdır. Qərb utopiyaları sosial-siyasi xarkretli olmaları ilə də səciyyələnirlər. Siyasi amil bu utopiyalarda daima öndədir. Köklü dəyişiklikləri hədəfləmələri Qərb utopiyalarında üstündür.

**2. Mötədillik və üsyankarlıq**. Şərq utopik təlimləri daima olanı qorumaq, onu bir növ mühafizə etmək, məntiqinə əsaslanırlar. Şərqdə təəssübkeşlik və keçmiş irsə qarşı son dərəcə mötədil davranmaq adətdir. Şərqdə artıq keçmişdə mövcud olan ənənələri daima daha da yaxşılaşdırmaq, onlardakı müsbət tərəfləri önə çəkmək, indiki formanı dəyişikliyə uğratmadan qoruyub saxlamaq əsasdır. Qərb utopiyaları daha novatordular. Qərb daima islahatçı, tənqidi xarakterli olması, gələcəyə baxması ilə səciyyələnir. Qərbdə utopiyanın real şərtlər ilə bağlılığı da üstündür. Utopiya daha çox real şərtlərin diqtəsidir. Onun reallıq əmsalı da kifayət qədər böyükdür. Qərb utopiyalarına maksimalizm xüsusiyyətləri də xasdır. Qərbdə olanlarla qane olmamaq fikri öndə olduğundan, o, hər zaman yüksəkliklər fəth etməyə çalışır.

**3. Dini və mifoloji istiqamətin üstünlüyü**. Şərq utopik modellərində dini və mifololoji dünyagörüşlərinə bağlılıq daima əsas

olmuşdur. Uzaq Şərq və İslam utopik modelləri hər zaman dini dünyagörüşü üzərində inşa edilmişdir. Şərq utopiyalarında fəlsəfi deyil, teoloji amilin öndə olması seçilən məqam olmuşdur. Şərq utopik modellərinə teoloji aspekli utopik təlimlər kimi tərif vermək olar. Şərq utopik modelləri fəlsəfi məqamları ehtiva etməsinə baxmayaraq, teologiyanın çərçivələrini tərk etmirlər. Dini dünyagörüşü Şərq utopiyalarının leytmotivini təyin edir. Dini tərəfin daha az hiss olunduğu Qərb utopik modellərində bəşər kontekstli azadlıq ideyası daha öndədir. Qərbin utopik ənənələrində rasional faktor əsas və daha qabarıqdır. Din və mifologiya ikinci dərəcəli, bəzənsə, ümumiyyətlə yox dərəcəsində ehtiva olunmaqdadır. Qərb utopik təlimləri daha dünyəvidirlər. Onlarda sekulyar amil Şərqlə müqayisə olunmayacaq dərəcədə güclüdür.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı tezis və məqalələr nəşr olunmuşdur:**

1. Utopiya və antiutopiya ictimai şüurda dinamikliyin təzahürü kimi // – Bakı: Sivilizasiya, – 2016, № 31, – s. 14-19.
2. Multikulturalizm və sosial utopiya ideyası / Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri elmi-praktik konfransın materialları. – Bakı, Mütərcim, – 8-9 Sentyabr, – 2016, – s. 404-405.
3. Utopik cəmiyyətdə qadının mövqeyi // – Bakı: BDU, İlahiyyat fakültəsinin elmi məcmuəsi, – 2017, № 27, – s. 101-106.
4. Utopik İslam sosializmi nəzəriyyədən praktikaya doğru // – Bakı: Sivilizasiya, – 2017, № 36, – s. 12-20.
5. Nəsiminin fəlsəfi görüşlərində ideal insan obrazı // – Bakı: Geostrategiya jurnalı, – 2017, № 42, – s. 63-64.
6. Monotheism – from Egypt to İslam // İslam Həmrəyliyi – Azərbaycan nümunəsi müsabiqəsinin materiallar toplusu. – Bakı: – 01 Dekabr, – 2017, – s. 208-209.
7. İslami dəyərlər çərçivəsində Nəsiminin kamil insan axtarışı / İslam həmrəyliyi – 2017: reallıqlar və perspektivlər elmi-metodik konfransının materialları. – Bakı, Bakı Universiteti, – 25-26 Aprel, – 2017, – s. 281-282.

8. Vahid mənşəli din utopiya deyildir / Təkrarlanan mədəniyyətlərdə prototiplər və/və ya mədəniyyət genomları "Müqayisəli ədəbiyyat və mədəniyyət VII Beynəlxalq elmi konfransının materialları. – Bakı, Mütərcim, – 20-21 Aprel, – 2017, – s. 58.

9. Azərbaycan fəlsəfi fikir tarixində sosial utopiya problemi / Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materialları. – Bakı: – 24-25 Oktyabr, – 2017, – s. 41-42.

10. Bəşəriyyətin ən böyük utopiyası: vahid din və vahid mədəniyyət // – Bakı: Sivilizasiya, – 2018, № 37, – s. 49-53.

11. Əhməd Ağaoğlu "Sərbəst insanlar ölkəsində" əsərinin timsalında AXC dövründə ideal cəmiyyət obrazı // "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu idarəsi tərəfindən təşkil olunmuş Azərbaycan Cümhuriyyəti-100 adlı müsabiqə. – Bakı: Nurlan, – 2018, – s. 443-450.

12. Marx and Shariati: utopic socialism // – Львів: Вісник львівського університету. Філософсько-політологічні студії, – 2018. №19, – с. 103-107.

13. Qloballaşan təhsil və fəlsəfənin tədrisdə əhəmiyyəti / "Sustainable development and actual problems of humanitarian sciences" elmi-praktik konfransın materialları. – Bakı: –14-15May, – 2018, – s. 683-686.

14. Eko-sosializm qlobal problemlərin həlli üçün çıxış yolu və ya müasir utopiya kimi // Beynəlxalq münasibətlərin aktual problemləri. – Bakı: – 25 Oktyabr, – 2019, – s.208-211.

15. Transformation of Utopia // Политика и культура: пространство игры Венгеро-российский культурно-просветительский фонд "Dialogorum", – Macarıstan, Budapeşt, – 2020, – s. 41-45.

16. Bernard Mandeville: the fact of self-interest as the basis of an ideal society / "World Youth Studies Congress – III" Beynəlxalq konfransı. – Bakı: – 19-20 May, – 2023, – s. 70-71.

17. Utopik dünyagörüşü Skandinaviya ölkələrində sosial siyasətin mənbəyi kimi / – Bakı: Sosial tədqiqatlar elmi-analitik jurnalı. – 2023, Cild 3, №1, – s. 214-229.

Dissertasiyanın müdafiəsi 16 may 2024-cü il tarixində saat 14[00] Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 09 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.04.2024

Kağızın formatı: A5

Həcm: 43773

Tiraj: 100